BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

№4 Humanitar elmlər seriyası 2015

Müxtəlif ölkələrin və xalqların ədəbiyyatı
UOT 821(091) 47.09.91

Ç.DİKKENS SOSİAL TƏNQİDÇİ KİMİ

V.Ş.KƏRİMOVA
Bakı Dövlət Universiteti
vusale_k@mail.ru

XIX əsr İngilis ədəbiyyatının görkəmli nümayəndələrindən biri olan Ç.Dikkensin yaradıcılığı Viktoriya dövründə formalaşmışdır. Dikkens Viktoriya dövrü ədəbiyyatının ən məşhur yazıçılarından biridir. O, sosial tənqidçi və realist yazıçı idi. Əsərlərində əsas tənqid hədəfi İngilis bürokratizmi, təhsil problemi, kapitalizm, qadına qarşı münasibət, varlı və kasıblar arasındakı ziddiyyətlər olmuşdur. Romanlarında dövrün aktual məsələlərini canlandırır və onların həlli yolunu göstərməyə çalışırdı.

Açar sözlər: Çarlz Dikkens, məhkəmə, Viktoriya dövrü, kapitalizm, burjuaziya, tənqidçi

XIX əsrin birinci yarısında İngilis ədəbiyyatının inkişafı tarixində xüsusi rolu olan tənqidi realizm ədəbi cərəyanının ən görkəmli nümayəndələrindən biri olan Çarlz Dikkensin bədii yaradıcılığı İngiltərə Viktoriya dövründə formalaşmışdır. Ç.Dikkensin yaradıcılığı dövründə İngiltərədə dəhşətli yoxsulluq hökm sürürdü, xalq kütləsi böyük məhrumiyyətlər içində yaşayırdı, bu da təbii olaraq cəmiyyətdə sinifləşmə prosesini sürətləndirir və onların aralarındakı münasibətləri dərinləşdirirdi. Cəmiyyətdə gedən bütün proseslər Dikkensin dünyagörüşündə baş verən bütün ictimai-siyasi hadisələrə tənqidi münasibət formalaşdırırdı.

Ç.Dikkens Viktoriya dövründə sənayeləşmə və İngiltərədə urbanizasiya baş verdiyi bir dövrdə yazıb yaradırdı.

Ç.Dikkens sinfi mübarizə, elit burjuaziya, aristokratlar, cəmiyyətin bütün imtiyazlarından məhrum olan yoxsullar, uşaq əməyinin istismarı, (məs., Oliver Tvist istismar edilən uşaq işçi qüvvəsi kimi məşhurdur) qadınlara qarşı amansız rəftardan və Viktoriya dövrü idarə üsulunun hüquq və ədalət sistemindən yazırdı.

"Qədim dövrlər dükanı" romanında fəsillərindən birində yazıçı fəhlə sinfinin acınacaqlı həyatını təsvir edir və iqtisadi böhranın növbəti ağırlıqlarını qələmə alır. 1855-ci ildə Fosterə yazdığı bir məktubunda da yaradılışdan optimist olmasına baxmayaraq, ölkəsinin qaranlıq mənzərəsini bu şəkildə təsvir edirdi:

“An enormous black cloud of poverty in every town which is spreading and deepening every hour, and not one man in two thousand knowing anything about it, or even believing in its existence; with a non-working aristocracy, and a silent Parlament, and everybody for himself and nobody for the rest; this is the prospect.”

(Hər şəhərdə nəhəng qapqara bir yoxsulluq buludu saatbasaat yayılmaqda və iki min adam arasında bu mövzuda məlumatı olan, hətta belə bir şeyin var olduğuna inanan bir tək adam belə yoxdur. Aristokratiya işləmir, parlament susqundur. Hər kəs özünü düşünür, heç kim başqalarını düşünmür. Bax mənzərə bu cürdür).

Hətta söz oyunu edərək parlamentə “danışmaq və yalan söyləmək evi” deyə lağlağı bir ad qoymuşdu. Orada xalqın həqiqətən təmsil edilmədiyini, böyük sənayeçilərin, varlı tacirlərin və zadəganların, parlamentə və hökumətə tamamilə hakim olduqlarını bilirdi. Məsələn, “Soyuq ev” əsərində kabinet üzvlərinə Coodle, Doodle, Poodle, Foodle, Goodie, Joodle kimi gülünc adlar verərək, bir hökumət böhranına istehza edirdi:

«England has been in a dreadful state for some weeks. Lord Coodle would go out, Sir Thomas Doodle would not come in, and there being nobody in Great Britain to speak of except Coodle and Doodle, there has been no government. »

(İngiltərə həftələrdir ki, faciəvi bir vəziyyətdədir. Lord Coodle cabinetdən çıxmaq istədi, Thomas Doodle bəy kabinetə girməyim dedi və Böyük Britaniyada Coodle və Doodle xaricində adı xatırlanmağa dəyər insan olmadığı üçün hökumət də yoxdur).

Önəmli romanlarından hesab edilən “Oliver Tvistin macəraları”, “Böyük ümidlər”, “Çətin zamanlar” da isə məzlum təbəqənin vəziyyətini, üzə çıxarırdı. Onun diqqətini çəkən və daha çox narahat edən, xüsusilə qadın və uşaqların bu dövrdəki vəziyyəti idi.

Viktoriya dövründə qadının rolu çox da böyük deyildi. XIX əsrin başlanğıcında memarlıq, həkim, hüquqşünas, siyasətçi kimi peşələrlə məşğul olan qadınlar demək olar ki, yox idi. Qadın üçün evlilik karyera idi, uşaq dünyaya gətirmək və ana olmaq isə həyatının məqsədi idi. İngilis cəmiyyəti çox patriarxal idi və qadınların həyatı onların gündəlik ev işləri görməsi ilə məhdudlaşırdı. “Dombi və oğlu” romanında Viktoriya dövründə qadına münasibət məsələsinə də toxunan Dikkens göstərir ki, Dombi ikinci dəfə evlənir, onun ikinci arvadı Edit nəyə isə etiraz etdikdə Dombi təəccüblənir. Dombi üçün arvad- şəxsi əmlakdır, evin bir küncüdə duran mebellə onun heç bir fərqi yoxdur. Digər romanı “Soyuq ev” də isə Ester xarakteri ilə qadınların vəziyyətini göz önünə sərməkdədir. Dikkens bu xarakter ilə kapitalizm quruluşunun altında əzilən qadınların təzyiq içində olduqlarını göz önünə çıxarır.

“Böyük ümidlər” romanında yazıçı insanlar arasında sevgisizliyə, ikiüzlülüyə qarşı çıxarkən pul arzusu və ayrıseçkiliyini acımasızca tənqid etmişdir. Pipin həyatından bəhs edən bu roman XIX əsr İngiltərədəki mədən kənd-

lərindəki həyatı əks etdirir. Bir katorqa dustağının köməyilə varlanan Pip, Londonun centlmenlərindən birinə çevrilir, ancaq Pipin bütün arzuları ve ümidləri tədricən məhv olur və Dikkens göstərir ki, bu İngiltərənin bütün quruluşunun və qayda-qanunlarının acı nəticəsidir. Eyni mövzu yazıçının ”Dombi və oğlu” romanında da İngiltərə ictimai həyatının, burjua cəmiyyətinin həyatında əsas rol oynayan pulun gücü göstərilir və pulun hökmranlığı acı istehza ilə tənqid edilirdi.

40-cı illərin sonu Dikkens “Devid Kopperfild” romanında isə o dövrün ən yaralı yeri olan təhsil məsələsinə toxunurdu. Burada deyilir ki, Devidin oxuduğu məktəbi kütbeyin Krikl idarə edir, sonra o tərslik etdiyi üçün atalığı onu anbarda butulka yumağa göndərir və nəhayət sərgərdan həyat yoxsulluq və dilənçilik şəraitində keçən günlər gələcək yazıçının “ürəyini saflaşdırır” onun bir sənətkar kimi yetişməsinə şərait yaradır. Ç.Dikkens ictimai problemlərə praqmatik bir baxımdan baxıb, təhsil sisteminin düzəldilməsi, kiçik uşaqların mədəndə istismar ediləcəyindənsə doğru-dürüst məktəblərdə təhsil görmələri, yoxsulların sağlam iqamətgahlarda oturmaları kimi, bir az yaxşı niyyət və bir az səylə reallaşan istəklər irəli sürürdü. Ç.Dikkens “Nikolas Niklbi” əsərində, “Çətin zamanlar” və bir çox başqa romanlarında bütün dövrlərin müzakirə mövzusu olan uşaqların təhsil sisteminin pozuqluğu, müəllimlərin qeyri-kafiliyi, ya da zalımlığı üstündə durur və ölkədə mövcud olan problemləri elə açıq şəkildə qoyub tənqid edirdi. Yalnız yoxsul uşaqlar deyil, varlı uşaqların da pis təhsilin qurbanı olması faktını vurğulayırdı.

O, “Soyuq ev” romanında çürük İngiltərə portreti yaradaraq məhkə-mələrdəki axsaqlıqları, sonu gəlməyən ləngidilmələri və süründürməçiliyi tənqid hədəfi olaraq seçir. Məhkəmə gedişinin uzanmasının təsviri ilə burjua üsul-idarəsinin və qanunlarının antihumanist mahiyyətini açıqlamağa çalışır və bir sıra müqayisələr aparır. Bu müqayisələr onu göstərir ki, yazıçı burjuaziya-nın belə bürokratik qanunlarının artıq vaxtı keçmiş bir şey olduğuna inanırdı. Dikkens ingilis kübar mühitini təsvir edərkən kəskin tənqiddən istifadə edir və kübarların sadə adamların taleyi qarşısında məsuliyyət daşıması problemini irəli sürür. Ölkədə hökm sürən qanunların mənasızlığından və qəddarlığından ürək ağrısı ilə bəhs edir.

Çarlz Dikkensin “Ağır zamanlar” romanında hadisələrin satirik təsviri üstünlük təskil edir. XIX əsrdə olan zülmkarları özündən razı lovğaları yalançıları gülüş hədəfinə çevirən Ç.Dikkens acı bir nifrətlə təsvir edirdi. Bu romanda sosial problemlərə həsr olunmuş, zəhmətkeşlərin istismar olunması və sinfi mübarizə məsələsinə toxunmuş, cəmiyyətdəki ziddiyyətlərin mahiyyətini göstərməyə çalışmışdır.

Çarlz Dikkens Amerika Birləşmiş Ştatlarına böyük ümidlərlə maraq və həyəcanla getmişdi. Çünki orada heç vaxt krallıq olmamışdı, ucsuz-bucaqsız torpaqlara sahib aristokrat bir sinif də yox idi, Amerika bir respublika idi, hansı ki, Dikkensin inandığı kimi, siyasi nizamın, demokratiyanın, bərabərliyin, azadlığın hakim ölkəsi idi. Dikkens çox keçmədən xəyal qırıqlığına uğradı.

“Martin Çezzlvit” əsərini oxuduğumuzda gördüyümüz kimi “American way of life” (Amerika həyat tərzi) deyə təriflənən həyatın çatışmayan yanlarını o, hələ yüz il əvvəl anlamışdı. O, Virciniyada tarlalarda çalışan qaradərili kölələri görüncə dayana bilmədi. İnsanlığa bu dərəcə də zidd olan bir vəziyyəti seyr etməyə belə dözə bilməyəcəyini söylədi. Amerikalılar qara dərililərlə pis davranmadıqlarını, onların öz sahiblərini çox sevdiklərini dayanmadan izah edirdilər. Amma Dikkens qəzetlərin qaçan kölələrlə bağlı elanlarla dolu olduğunu bilirdi. O, amerikalıların pul hərisliyinə çox pis olurdu. Əgər buna fikir versək orta təbəqəyə məxsus amerikalı belə deyirdi: “Our people do not think of poetry, sir. Dollars, banks and cotton are our books, sir.” (Bizim xalqımız şeiri düşünməz, bəy. Dollar, banklar və pambıq bizim kitablarımızdır, bəy). İlk gedişində ancaq beş ay qaldığı bu ölkədə artıq bir çox qüsur görməyə başlamışdı. Hamısı sərxoş olan jurnalistlər rüşvət yeyirdilər, hər kəs bir-biri ilə həm çox yaxın idi, həm də mütəmadi olaraq bir-birlərini aldadırdılar. Amerikalılar təcavüzkar və kobud idilər, özlərini çox bəyənirdilər, üstəlik Forsterə bir məktubunda yazdığı kimi düşüncə azadlığının dünyada ən az olduğu yer Amerikadır. “I fear that the heaviest blow to be dealt at liberty will be by this country” (Azadlığa vurulan ən ağır zərbəni bu ölkənin vuracağından qorxuram) deməsi isə ayrıca məsələ idi. Məşhur teatr sənətçisi Makridiyə bir məktubunda oranın arzuladığı respublikaya heç bənzəmədiyini uzun-uzun izah etdi. Bütün mənfi tərəflərinə baxmayaraq İngiltərəni Amerikadan daha üstün tutduğunu da söylədi. Halbuki, irəlidə görəcəyimiz kimi Dikkens Amerikanı tənqid etdiyindən daha sərt bir şəkildə öz vətənini tənqid etmişdi. Dikkens İngiltərəyə dönər-dönməz “Amerika qeydləri” əsərini nəşr etdi və bir il sonra yazdığı “Martin Çezzlvit” əsərində Amerika Birləşmiş Ştatlarını çox tərəfdən qınadı. “American Notes” əsərini yaxşı niyyətlə edilən tənqidlərə pis baxmazlar deyə fikirləşdiyi vətənpərvər olan Amerikalı dostlarına təqdim etdi (3).

Amma gözüaçıq amerikalı jurnalist səhifələri nəşriyyat evindən rüşvət verərək satın alıb, bir New York qəzetində yayınlayınca, dünyagörüşlü amerikalıların anlayışla qarşıladıqları bu tənqidlər bəzi amerikalıları bir xeyli qəzəbləndirdi. Amerikadan qayıtdıqdan bir-iki il sonra Dikkens ailəsi ilə birlikdə Fransa, İsveçrə və İtaliyaya səfərə çıxmış, daha sonralar da, bir neçə ay qalmaq üçün tez-tez Avropaya getmişdir. İtaliyanın gözəlliyini, Florensiyanı,Venesiyanı görüncə bu şəhərlərə valeh olmuşdur. Məktublarında Venesiya qədər görkəmli bir şəhər xəyal edilə bilməyəcəyini söylədi, lakin Şelli, Bayron, Robert Browning və bir çox ingilis yazıçısından fərqli olaraq, Avropaya yerləşməyi, ya da orada bir neçə il yaşamağı ağlından belə keçirmədi. Dikkensin gözündə Avropanın gözəllikləri bir xəyal idi, London isə tək həqiqət idi. Onun Londondan qopması heç mümkün deyildi. Londonda dünyaya gəlmiş, ömrü boyunca Londonda yaşamış, bir çox romanlarının mənzərəsi olan bu şəhərə ehtirasla bağlanmışdı. Yaxınlarının dediyinə görə, hava nə cür pis olursa olsun, qarda, sisdə, yağışda Londonun ən yoxsul, ən bərbad küçələrində saatlarla dolanaraq, ətrafını nəzərdən keçirərmiş, ancaq bu gecə gəzintilərindən

sonra, səhərlər iş stolunda əyləşib romanını yazmağa davam edə bilirmiş. Eyni dövrdə Çarlz Baudelaire "jet'ainie ö capitale infame "(sevirəm səni, ey alçaq paytaxt) deyərək, Fransızca şeirində Parisi təsvir etdiyi kimi; Çarlz Dikkens də, o biri ingilis yazıçılarından fərqli bir London yaratdı. Dikkens Baudelairenin çox yaxşı bələd olduğu kompleks bir duyğunu dilə gətirərək, azərbaycancaya çevrilməsi çətin olan bir ifadə ilə "an attraction repusion" (itələyiciliyin cazibədarlığını) tapırdı Londonda. Corc Gissingin Dikkensə aid 1898-ci ildə yazdığı araşdırmada dediyi kimi London onun gözündə həm qorxu oyadan, həm də ovsunlayan bir yer idi. Sanki bu şəhəri böyük zəhərli bir hörümçək toru örtmüştü."Dombi və oğlu" romanında, Londonu «the monster roaring in the distance» (uzaqlarda guruldayan canavar) olaraq görür və yazırdı: "London kənd yerlərində artıq dolana bilmədikləri üçün paytaxta axım edən yoxsulları udub yox edən bir canavardır" (4).

Ç.Dikkens nəinki bu dövrün çatışmazlıqlarını sərt tənqid edir, acı-acı gülürdü, həm də bu problemlərin həlli yolunu axtarırdı. O, İngiltərədə yoxsulluğu və ictimai haqsızlıqların qarşısını alacaq islahatları müdafiə edirdi. Fahişələrin yurdlardan toplanıb yenidən cəmiyyətə qazandırılmalarından tutaq, yoxsullara yaxşı iqamətgahlar verilməsinə qədər, əl atmadığı ictimai problemlər yox idi. Uşaqlığında yaxından gördüyü cəza evlərindəki həyat şərtlərinin düzəldilməsini istəyirdi. Bir dükandan beş şillinqlik yemək oğurladı deyə insanların asıldıqları bir dövrdə, ölüm cəzasının qaldırılmasını istəyirdi. Fabriklərdə və mədənlərdə işçilərin istismar edilməməsini istəyirdi. İşlədilən uşaqlar mövzusunda bir dövlət hesabatını oxuyaraq, mədənlərin qaranlıq dəhlizlərində yeddi-səkkiz yaşlarında qızlarla oğlanların çəkdikləri arabalara zincirləndiklərini, ağır yüklər daşıyaraq gündə on dörd saat ac-yalavac çalışdıqlarını, üstəlik tənbəllik etməklə günahlandırılıb şiddətə məruz qaldıqlarını öyrənincə Dikkens hiddətlənmiş, bu vəziyyətin qarşısını almaq üçün əlindən gələni etmişdi. Əgər Anatol Frans Emil Zolya üçün "dövrünün vicdanı" ifadəsini işlədirdisə, bizcə də Ç.Dikkens Viktoriya dövrünün vicdanı idi. Ç.Dikkens xalqa tərəf deyildi sadəcə, bir çox ziyalılardan fərqli olaraq, xalqın tam özü idi. Dikkens xalqa tərəf deyildi sadəcə, bir çox ziyalılardan fərqli olaraq, xalqın tam özü idi. Yağışlı qış gecələrində Londonun kənar məhəllələrində gedərkən öz yoxsul uşaqlığını, ayaqqabı boyası anbarındakı işini, kirayə ödəyə bilməyib ev əşyalarının əllərindən çıxmasını, ailənin dağılmasını üstəlik tək başına səfil bir otaqda yatmasını, bazar günləri həbsxanaya gedib atasını görməsini hər zaman yenidən yaşayırdı. Hərçənd öz problemləri artıq həllini tapmışdı, orta sinfin varlı bir insanı idi, ölkəsinin ən məşhur yazarı idi indi, amma onun əvvəl yaşadıqlarını yaşayan yüz minlərlə uşağın, ölkəsinin əksəriyyətini təşkil edən fəhlələrin ağrılarına göz yuman deyildi (1, 301).

Viktoriya dövründə rifah var idi, böyük Britaniya Imperatorluğu, həm müstəmləkələrdən axan sərvət, həm də yeni inkişaf sənaye sayəsində sürətlə zənginləşirdi, amma bu zənginliyin bərabər bölünmədiyini bilən Dikkens "Nicholas Nickleby" əsərindəki siyasətçi Gregsbury kimi, hər kəsi özü kimi

varlı hesab edənləri tənqid hədəfi kimi götürdü. Gregsbury İngiltərənin sıxlıq şəhərlərinə, gecə-gündüz işləyən fabriklərinə, mal dolu dükanlarına, gəmilərinə, dəmir yollarına baxıb məst olar, gözlərini səmaya çevirər, əllərini qovuşdurar, "thank Heaven, I am a Brito"(Tanrıya şükür, mən bir Böyük Britaniyalıyam) deyərdi, amma Dikkens heç də belə deyə bilmirdi, çünki o şəhərlərdəki əməkçilərin pərişan olduqlarını, uşaqlarla qadınların o fabriklərdə istismar edildiklərini, o dəmiryollarının insanları əzib keçdiyini, ancaq varlıların o dükanlardan mal ala bildiklərini, ictimai narahatlığın qorxunc ölçülərə çatdığını, "Condition of England" (İngiltərənin vəziyyəti) adı verilən problemin həll edilməsinin getdikcə çətinləşdiyini görürdü.

Dikkensin bu üfunətli siyasi ətraf mühitə girməyə heç niyyəti olmadığından məşhurlaşdıqdan sonra bir çox seçki bölgəsindən aldığı namizədlik təkliflərini heç düşünmədən geri çevirdi. Hər növ haqsızlığa daha təsirli bir şəkildə qarşı gələn məqsədi ilə, hakimliyin müəyyən bir hüquq təhsili tələb etmədiyi o dövrdə, Londonda hakimlik edə bilmək üçün bir kabinet üzvünə müraciət etmişdi, amma bu istəyi rədd edən əməkçi kütlələrinin qorxunc həyat şərtləri, Dikkensin başlıca qayğılarından biri idi. 1832-ci ildə İslahat qanunu parlament sistemi baxımından kiçik bir irəliləmə sayılsa belə, yoxsulların dərdinə bir çarə tapa bilməmişdi. Tam tərsinə bu islahat qanunu qəbul edildikdən sonra, İcmalar Palatasına seçilənlər Oliver Tvistdə təsvir edilən Yoxsullar Aktı çıxarmışdılar. Yoxsullar, "workhouse" (iş evi) deyilən, amma əslində bir toplama düşərgəsi sayılması lazım olan yerlərdə həps edilir, ancaq aclıqdan ölməyəcək qədər bəslənirdilər. Dünyaya yeni yoxsul körpələr gətirmələrini qarşısını almaq üçün ailələr parçalanır, cütlüklər uşaqlarından uzaqlaşdırılıb, ayrı-ayrı iş yerlərinə göndərilirdilər. Yoxsulları sanki sırf yoxsul olduqları üçün cəzalandırmağı məqsəd qoymuş bu mərhəmətsiz quruluşda uşaqların vəziyyəti ayrıca acınacaqlı idi. Yüzlərlə kimsəsiz uşaq "Baby farm" deyilən yerlərdə toplayıb ölümə tərk edirdilər. İşlədilən uşaqlar mövzusunda bir dövlət hesabatını oxuyaraq, mədənlərin qaranlıq dəhlizlərində yeddi-səkkiz yaşlarında qızlarla oğlanların çəkdikləri arabalara zincirləndiklərini, ağır yüklər daşıyaraq gündə on dörd saat ac-yalavac çalışdıqlarını, üstəlik tənbəllik etməklə günahlandırılıb şiddətə məruz qaldıqlarını öyrənincə Dikkens hiddətlənmiş, bu vəziyyətin qarşısını almaq üçün əlindən gələni etmişdi (1, 324).

Dikkens yoxsulların öyrədilməsinə ayrıca əhəmiyyət verirdi. Yenə "The Examiner"də nəşr edilən «Ignorance and Crime» (Cahillik və Cinayət) adlı məqaləsində, əsasən, öyrədilməmiş kəslərin qanunları pozduqlarını ifadə edirdi. Öz çıxardığı "Household Words" jurnalında yazdığı islahatlar arasında, dövlətin təhsil təşkilatlarına pul dəstəyi təmin etməsi, London Universitetinin gündüz çalışanlara gecələr dərs keçməsi kimi təklifləri var idi. Halbuki İngiltərəyə hakim olan yüksək təbəqələrin, bu cür düşüncələri nə cür təhlükəli hesab etdikləri "Soyuq ev"əsərində Leicester Dedlockun mövqeyindən aydın olur. Bu aristokrata görə, yoxsullar, öz "station"larında, yəni öz təbəqələrində qalmalıdırlar, çünki Leicester Dedlocka baxsaq, yoxsullar oxuyub savadlanar və

daha çox pul qazanarlarsa, aşağı təbəqədən çıxıb orta təbəqəyə keçə bilərlər (3). Bu isə ölkənin gec-tez yıxılmasına səbəb olar. Göründüyü kimi, Dikkensin təkliflərinin heç bir utopik tərəfi yox idi. Dikkens XIX əsr ingilis ictimai bərabərsizliyindən, sosial ziddiyyətlərdən, təhsil sistemindən, uşaq əməyinin istismarından danışsa da, bu problemlər elə indi də öz aktuallığını itirmir.

ƏDƏBİYYAT

1. Əmirxan Xəlilov. Dünya ədəbiyyatı II hissə. Dərs vəsaiti. Bakı: Bilik, 2013, 536 s.
2. George Cruikshank and Dickens, Philip V.Allingham, Faculty of Education Lakehead University, Thunder Bay, Ontario 654 p.
3. Dickens and Critical theory. Grahame Smith, Professor of English at the University of the Stirling.
4. Gilbert Keith Chesterton. Appreciations and Criticisms of the Works of Charles Dickens. Part two.Japon on 6 July, 1998
5. Hiam Brinjikji, Property rights of women in Nineteenth-Century England.

Ч.ДИККЕНС КАК СОЦИАЛЬНЫЙ КРИТИК

В.Ш.КЕРИМОВА

РЕЗЮМЕ

Один из видных представителей девятнадцатый век британской литературы творчество Чарльза Диккенса сформирован в Викторианский период. Диккенс один из-величайших писателей Викторианской епохи. Он был критиком социальной системы. Основная критической цель в его работы был британский бюрократия, проблема образования, капитализм, отношение к женщинам, противоречия между богатыми и бедными. В своих произведениих он показывал актуалные своего времени и старался показать пути их решеныя.

Ключевые слова: Чарльз Диккенс, суд, Викторианской епохи, капитализм, буржуазия, критик

Ch.DICKENS AS A SOCIAL CRITIC

V.Sh.KARIMOVA

SUMMARY

One of the prominent representatives of the English literature of the XIX century, Ch.Dickens' creativity was formed during the Victorian period. Dickens was one of the prominent writers of that time. He was a social critic and a realistic novelist. One of the features distinguishing him from other literary representatives was his democracy. The main target of criticism in his works was English bureaucracy, problems in education, capitalism, attitudes towards women, contradictions between the rich and the poor. He focused on the topical problems of his time and tried to bring out their solution.

Key words: Charles Dickens, the court, Viktorian time, capitalism, the bourgeoisie, critic